
№6-8 Göyərçin 2000
ISSN-0207-4710
Göyərçin
№2 Göyərçin 2000
ISSN-0207-4710
Mö'cüzəli xəzinə
№12 Göyərçin 2000
ISSN-0207-4710
№5 Göyərçin 2000
ISSN-0207-4710
BÖYÜK ARZUY
GEDƏN YOL
№3 Göyərçin 2000
ISSN-0207-4710
Göyərçin

# XORUZ VƏ TÜLKÜ

Şotland nağılı

Bir dəfə hiyləgər gözlü, yumşaq quyruqlu Tülkü yavaş-yavaş bir fermerin həyətinə gəldi və yapyağlı, gözləri mərcan, pipiyi qan bir Xoruz tutdu. Aləm bir-birinə dəydi. Adamlar qışqıra-qışqıra oğrunun dalınca qaçmağa başladılar.

Tülkü gücü gəldikcə bərk qaçıb canını qurtarmaq istəyir, ancaq ağzındakı Xoruzu dişləri ilə daha bərk sıxırdı.

Gözləri mərcan, pipiyi qan Xoruz qətiyyən Tülkünün xörəyi olmaq istəmirdi. Elə buna görə də Tülkünün iti dişləri arasında hey fikirləşir, canını qurtarmaq üçün çarə axtarırdı.

Xoruz çox nəzakətlə Tülkünü danışdırmaq, söhbətə tutmaq istədi:

- Axmaq insanlara bax e, səni tutmaq istəyirlər. Heç belə qoçaq Tülkünü tutmaq olar?

Xoruzun sözləri Tülkünün çox xoşuna gəldi. Bunu hiss edən Xoruz yenə şirin dilini işə saldı:

- Onlar səni tuta bilməzlər, - bu şəksizdir. Ancaq görünür "oğrunu tutun. Oğrunu tutun". - deyə-deyə qaçmaq onlara xoşdur. Mən sənin yerinə olsam, qışqırıb deyərəm ki, bu xoruz mənimdir, mən oğru deyiləm. İnanıram ki, adamlar sənin bu sözlərini eşidən kimi sakitcə evlərinə dönəcəklər.

Söz Tülkünün ağlına batdı. O ağzını açıb qışqırdı:

- Bu mənim xoruzumdur.

Pipiyi qan, gözləri mərcan Xoruza da elə bu lazım idi. Tülkünün ağzı açılan kimi o qaçıb gözdən itdi. Tülkü onun ardınca baxa-baxa qaldı.



# TÜLKÜ VƏ BALACA QUŞ

Balaca, bapbalaca bir quş çayın kənarındakı isti bir daşın üstünə qonub özünü günə verirdi. Quşun mürgüləməsindən istifadə edən hiyləgər Tülkü qəflətən onun üstünə atılıb quşu tutdu.

Quş tülküyə yalvarmağa başladı:

- Tülkü lələ, məni yemə. Əgər sən məni buraxsan, sənin üçün yekə, yepyekə, elə başın boyda bir yumurta yumurtlayaram.

Tülküyə elə gəldi ki, qeyri-adi bir quş tutub. Yekə, yepyekə yumurtaya sahib olmaq arzusu ona elə güc gəldi ki, o saat ağzını açıb quşu havaya buraxdı.

Balaca, bapbalaca quş uçub ağacın uca bir budağına qondu və gic tülkünü ələ salmağa başladı:

- Mən sənin başın boyda yumurta yumurtlaya bilmərəm. Ancaq sənə üç ağıllı məsləhət vermək istəyirəm. Onları yaxşı-yaxşı yadında saxla. Vaxt gələr, lazımın olar.

Birinci məsləhət: "Boş söhbətə inanma".

İkinci məsləhət: "Milçəkdən fil düzəltmək olmaz".

Üçüncü məsləhət: "Tutduğunu buraxma".

Ac tülkü ağzının suyu axa-axa quşun məsləhətlərinə qulaq asırdı.

Tərcümə edib işləyəni
R. ƏLİYEV

Rəssam *ORXAN*